**Fərəcova Z.** On səkkiz yaşlı qəhrəman // Azərbaycan : - 2024. - 7 avqust. - **№ 166**. - S. 8.

**Ailəsinin tək oğlu idi. Doğmaları hələ boyuna doyunca baxıb sevinməmişdilər. Şəhid olanda on səkkiz yaşı vardı. Bu qısa ömrünü əbədiyyətə qovuşduracaq qədər dolğun, mənalı ömür yaşadı Xaləddin Cəlilov...**

O, əslən Ağstafa rayonundan idi. 2002-ci il aprelin 13-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində dünyaya göz açmışdı. 2003-cü ilin noyabrında ailəsi ilə birlikdə Azərbaycana, Ağstafaya gəlmişdi. Ağstafa rayonundakı A.Abdullayev adına 2 saylı tam orta məktəbdə oxumuşdu.
Xaləddin kiçik yaşlarından idmanı çox sevirdi. Onun idmançı olmaq istəyini ailə üzvləri də dəstəklədi. İdmanla məşğul olmağa başlayan Xaləddin Cəlilov çox keçmədi ki, onları öz uğurları ilə sevindirdi. O, məktəb illərində dəfələrlə iştirak etdiyi idman yarışlarında diplom və medallara layiq görüldü.
Xaləddin Cəlilov üçün 2019-cu il çox uğurlu oldu. Həmin ilin iyulunda Türkiyənin Antalya şəhərində keçirilən dünya çempionatında iştirak etdi. Öz çəkisi üzrə bütün rəqiblərinə qalib gələrək, çempion adını qazandı. 2019-cu il oktyabrın 18-də Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən "İlin idmançısı" adına layiq görüldü, fəxri fərmanla təltif edildi.
2019-cu ildə Cəlilabad rayonunda keçirilən Mübariz İbrahimovun timsalında bütün şəhidlərin anım gününə həsr olunmuş yarışın qalibi olmasının anlamı isə Xaləddin üçün xüsusilə böyük idi. Xaləddin Cəlilov da Azərbaycanın bir çox gənci kimi Milli Qəhrəman Mübariz İbrahimovun igidliyinə, rəşadətinə, vətənsevərliyinə heyran idi. O, Mübariz İbrahimov kimi qəhrəman olacağını söyləyirdi.
Həmin ilin Xaləddinin həyatına gətirdiyi uğurlar bununla da bitmədi. 2019-cu ildə o, məzun oldu. Növbəti hədəfinə çatmaq üçün Bakı şəhərinə üz tutdu. Həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil oldu. Bu akademiyada təhsil almaq Xaləddinin çatmaq istədiyi ən böyük arzularından biri idi. Ancaq Vətən sevgisi bütün arzularının zirvəsində dayanmışdı. Xaləddin Cəlilov 2020-ci ildə təhsilinə ara verərək hərbi xidmətə yollandı. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başladı. Xaləddin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi. O, ilk günlərdən özünü nümunəvi əsgər kimi göstərdi. Cəsarətli, qorxmaz, çevik, ayıq-sayıq olan Azərbaycan Ordusunun əsgəri Xaləddin Cəlilov kəşfiyyat qrupuna seçildi.
2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Xaləddin Cəlilov da işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı döyüşə yollandı. O, Xüsusi Təyinatlı Qüvvələrin sıralarında döyüşçü yoldaşları ilə birlikdə düşmənə ağır zərbələr endirirdi.
Şiddətli döyüşlər gedirdi. Qəhrəman oğullarımız Azərbaycanın əzəli ərazilərindən olan Qarabağda və Şərqi Zəngəzurda Ermənistanın otuz ilə yaxın davam etdirdiyi işğala son qoymaq, torpaqlarımızı geri qaytarmaq naminə misilsiz hünər, hərbi məharət göstərirdilər. Xaləddin Cəlilovun daxil olduğu kəşfiyyat qrupu 17 post alaraq, yüzlərlə erməni əsgərini məhv etdi.

Xaləddin Murovdağ istiqamətində gedən döyüşlər zamanı ağır yaralandı.
Azərbaycan Ordusunun əsgəri Xaləddin Cəlilov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı tapşırığı yerinə yetirərkən şəhid oldu. Ağstafa rayonunda dəfn edildi.
Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qəhrəmanlıq göstərən igid döyüşçü Xaləddin Cəlilov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.